

Qələndər Xaçınçaylı

## Payız havası

Payız gəldii,  soldu çiçəklər-güllər,
Töküldü yarpaqlar, xəzana döndü.
Dağlardan arana endikcə ellər,
Təbiət qoynunda al günəş söndü.

Aldı qara bulud o  göy üzünü,
Qaranlıq libasın geydi obalar.
Payız gecələri dedi sözünü,
Dağlara aramsız yağdı yağışlar.

Qatar-qatar uçub getdi durnalar,
O həzin, çox qəmli nəğmələriylə.
Bir payız ömrümü yaşatdı onlar,
Yatmış təbiətin yatmış səsilə.

Sinəmə dağ çəkdi  dağlar, dərələr,
Büründü dumana anam Qarabağ.
Keçilməz olubdur keçilməz yerlər,
Bu payız ömrümə yağan qara bax.

Payız gözlərimdə oyanmaz çiçək,
Payız nəfəsimdə payız havası.
Payız notlarında köklənib ürək,
Bir ”Payız hava”mı çalın qadası,
Payız havasına oynayım gərək.

## İçim

Nə qədər sən amansızsan,
İnsaf yoxdur ürəyində.
İnsanlıqdan çox uzaqsan,
Yük çəkirəm kürəyimdə.

Həqiqətdən uzaq qalıb,
Yalan baxır gözlərindən.
Asılqantək şər asılıb
O tikanlı sözlərindən.

İlandan da zəhərlidir,
Hər yetəni çalır dilin.
Mərhəmət yox, bir sevgin yox,
Bir kimsəni sevsin qəlbin.

Bulud kimi yağdırsam da
mən üstünə göz yaşımı.
Sirkə kimi tünd qalmısan,
Yumşaltmayır baxışını.

İçin-için yanır içim,
Sən nə qədər dərd vermisən.
Əzabını tök, ver içim,
Artıq məni öldürmüsən.

## Haqlı haqqın alsaydı

Getdim haqqımı alım,
Haqqımı vermədilər.
Dedilər dustaq yatır,
Səbəbin demədilər.

Haqlı haqqın alsaydı
haqq adlanan qanunda.
Heç kəs dustaq yatmazdı
haqsızın zindanında.

Ədalət zəfər çalıb,
Öz yerini tutardı.
İnsan cənnət qoynunda
Od-alovsuz yatardı.

## Məhəbbətin yolu

Duyğuların çox dərin,
Ürəyinin odu var.
Çox istidir əllərin,
Əlini çəkmə, nə olar?

Fikirlərim bürüyüb
Məni ağ duman kimi.
O mavi gözlərindir,
Görünür ümman kimi...

Saçlarında daranır,
Axıb gedir şəlalə.
Sinən üstə ay yanır,
Yanağındır al lalə.

Bir yol gedir qəlbinə,
O yolu kəsmə, gülüm
Qəlbinin səsin dinlə,
Yol üstə əsmə, gülüm.

Bülbül ayrı, gül ayrı,
Söyləyir nələr bizə.
Bu bir qismət payıdır,
Düşübdür bəxtimizə.

Cixa bilmərik ordan,
Yazan yazıbdır bunu.
Yol göstərir yaradan,
Məhəbbətin yolunu.

İkimizin sabahı
Bu yoldan keçib gəlir,
Bu sevgidir, bu axı
İkimizi seçib gəlir.

Duyğuların çox dərin,
Ürəyinin odu var.
Çox istidir əllərin,
Əlini çəkmə nə olar.

## Tanrının bölgüsü...

Kimsi bəbək üçün
Kəndin parçalayır.
Kimsi körpəsini
zibilliyə atır.
Kimsi ömrünü
bir ömrə calayır.
Kimsi namusunu,
varlığını satır.
Tanrının bölgüsünə bax:
Uşaq istəyənə
bəbək vermir.
Bəbək istəməyənə
uşaq verir...
Möcüzədir, Allah, Allah!
Gözlərində bir övlad
həsrətilə yanan
ananın göz yaşları,
Bir övlad qayğısı
çəkmək istəyən ata baxışları
Qızmar Günəş altında yanan,
cadar-cadar çat atmış,
pardaqlanmış torpağa bənzəyir...

ədalət.-2018.-17 yanvar.-S.7.